# Gözəlliklər diyarı

***Quba öz təbii gözəlliyinə, saf havasına görə respublikamızın digər bölgələrindən ciddi surətdə fərqlənir. Təsadüfi deyildir ki, rayon daim qonaqqaralı olur. Buraya can atanlar zümrüddonlu meşələrdən, dişgöynədən bulaqlardan aldığı zövqü uzun müddət unuda bilmir və bu xoş təəssüratı təzələmək üçün təkrar-təkrar ölkəmizin cənnət guşəsinə ayaq basırlar.***

Bu gözəlliyə canı-dildən sığal çəkən, onu hər vəchlə artırmağa çalışan adamların zəhməti də təqdirə və tərifə layiqdir. Onlardan biri də diqqətinizə verdiyimiz mədəniyyət işçisi Firəngiz Haşımovadır. Quba Şəhər Mədəniyyət və İstirahət Parkının direktoru Firəngiz xanımı deyirik.

F. Haşımova əmək fəaliyyətinə Quba teatrının aktrisası kimi başlayıb. O vaxt onun cəmi 15 yaşı varmış. Sonralar o rayonlararası xalq yaradıcılığı evində metodist işləmiş, Quba, Xaçmaz, Qusar və Dəvəçi rayonlarında bədii özfəaliyyət kollektivlərinin, rəqs qruplarının, dram dərnəyinin təşkili və gənc istedadların aşkara çıxarılması və yetişdirilməsində böyük işlər görmüşdür.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti mədəni-maarif fakültəsinin məzunu olan Firəngiz xanım 1972-ci ildən Quba rayon mədəniyyət evinin direktoru vəzifəsində çalışmışdır. 5 ildir ki, parkın direktorudur.

Müəssisənin fəaliyyəti ilə bağlı F. Haşımova müxbirimizə aşağıdakıları söyləmişdir:

Şəhər Mədəniyyət və İstirahət Parkı özünü maliyyələşdirmə yolu ilə fəaliyyət göstərən təsərrüfat hesablı təşkilatdır. Park 28 may adına, Nizami adına, "Dədə Qorqud" və Quba parklarını birləşdirir.

Parklarda ötən müddət ərzində əhalinin asudə vaxtını səmərəli təşkil etmək məqsədi ilə müxtəlif mədəni xidmətlər göstərilir. Quba parkında ilboyu stolüstü oyunlar zalı fəaliyyət göstərir. Parkın digər hissəsi uzun müddətli icarəyə verilmişdir.

Park 2005-ci ildə 3,5 milyon manat gəlir əldə etmiş, pensiya fonduna və ərazi vergilər idarəsinə ödəmələri tam köçürülmüşdür. 2006-cı il üçün 5 milyon gəlir əldə etmək üçün smeta tərtib edilmişdir. 2005-ci ildə parklarda xeyli tikinti abadlıq işləri görülmüşdür.

28 may adına parkda oyunlar zalı, çayxana, Nizami adına parkda 2 çayxana, 1 qəzet köşkü fəaliyyət göstərir. Parklarda telefon avtomatı yoxdur.

Nizami adına şəhər parkının ərazisində kənar təşkilatlar, o cümlədən Məlumat-hesablama mərkəzi, Qarabağ Müharibəsi Veteranları şurası, Müharibə və Əmək Veteranları şurası, rayon təhsil şöbəsinə məxsus Şahmat məktəbi fəaliyyət göstərir, lakin parka icarə haqqı ödəmirlər. Parkların ərazisində qanunsuz tikintilər yoxdur.

Hazırda 28 may adına parkda 120 ədəd, Nizami adına parkda 100 ədəd, Dədə Qorqud parkında 15 ədəd, Quba parkında 27 ədəd, Dağüstü parkda 32 ədəd, Heydər Əliyev adına parkda 200 ədəd müxtəlif ağaclar, parklarda 500 ədəd bəzək kolu vardır.

Ağacların vəziyyəti qənaətbəxşdir

Bundan əlavə müxtəlif gül bitkilərindən ibarət zolaqlar salınmışdır.

Şəhər icra nümayəndəliyi tərəfindən vaxtaşırı parklarda ışıqlandırma işləri aparılır. Heydər Əliyev, Nizami, Dədə Qorqud, Quba parklarında işıqlandırma işi tam başa çatdırılmışdır.

28 may adına parkın işıqlandırılması üçün cari ildə şəhər bələdiyyəsi qarşısında məsələ qaldırılacaqdır.

Parkların sanitariya vəziyyəti qənaətbəxşdir. Parklarda təmizlik işləri rayon Kommunal Müəssisələri idarəsi, Mənzil-istismar idarəsi tərəfindən həyata keçirilir. Şəhər nümayəndəliyi tərəfindən parklara zibil qutuları qoyulmuşdur.

Dağüstü parkdan savayı, digər parklarda oturacaq skamyalar quraşdırılmışdır.

2005-ci ildə şəhər nümayəndəliyinin vəsaiti hesabına Nizami adına parkda əsaslı təmir və avadanlıq işləri aparılmışdır.

Heydər Əliyev adına parka Respublika Mədəniyyət Nazirliyinin Dəmiryol idarəsi tərəfindən və rayon büdcəsi hesabına tam əsaslı tikinti işləri görülmüş, yeni Heydər Əliyev muzeyi, yeməkxana, çayxana inşa edilmişdir.

Parklarda attraksion və oyun avtomatları yoxdur.

Hazırda parklarda stolüstü oyunlar vasitəsilə əhaliyə pullu xidmət göstərilir. İctimai iaşə obyektlərinin bir qismi parka icarə haqqı köçürür. 2005-ci ildə parkın 3 milyon 300 min manat gəliri olmuşdur.

Parkın nəzdində 2 texniki dərnək və bədii özfəaliyyət kollektivi vardır. Yay mövsümündə parklarda vaxtaşırı açıq havada konsertlər təşkil olunur. Əlamətdar tarixi günlərdə kütləvi bayram şənlikləri keçirilir.

Görülmüş işlərlə yanaşı parklarda bir sıra problemlər də mövcuddur.

Belə ki, 16 hektar torpaq sahəsi bu vaxta kimi parkın balansına daxil edilməmişdir. Parklarda fəaliyyət göstərən kənar təşkilatlara məxsus binalar parka verilməmiş, onlardan icarə haqqı alınması mümkün olmamışdır. Parkda inzibati binanın tikintisi üçün heç bir təşkilat tərəfindən vəsait ayrılmamışdır.

***Hazırda parklarda ağartma və təmizlik işləri aparılır. Cari ilin əvvəlindən 28 May, Nizami, Dədə Qorqud və Quba parklarında təmizlik və abadlıq işləri aparılır. Yaz-yay mövsümündə Nizami parkında stolüstü oyunlar vasitəsi ilə gənclərə mədəni xidmət göstərəcək. Dədə Qorqud parkında yay mövsümündə açıq havada çayxana fəaliyyət göstərəcəkdir.***

***Tural***